# “Doing Business” Hesabatı – məlumatlarda pozuntu barədə açıqlama

**Bakı, 28 avqust 2020-ci il** - Dünya Bankı Qrupu “Doing Business” hesabatı ilə əlaqədar aşağıdakı açıqlamanı vermişdir:

17 illik mövcudluğu müddətində “Doing Business” hesabatı biznes fəaliyyəti ilə məşğul olma xərclərini ölçmək istəyən ölkələr üçün dəyərli vasitə olmuşdur. “Doing Business” indikatorları və metodologiyası hansısa ayrıca götürülmüş ölkəni nəzərə almır, əksinə, ümumi biznes mühitinin yaxşılaşdırılmasına kömək edir.

2017 və 2019-cu illərin oktyabr ayında dərc olunmuş “Doing Business 2018” və “Doing Business 2020” hesabatlarında məlumatların dəyişdirilməsi ilə bağlı Dünya Bankının daxilində baş vermiş bir sıra pozuntuların olması məlum olmuşdur. Məlumatlarda bu dəyişikliklər “Doing Business” metodologiyasına uyğun olmamışdır.

Məlumatların və təhlilimizin etibarlığı və qərəzsizliyi son dərəcədə vacibdir və buna görə biz dərhal aşağıdakı tədbirləri görürük:

- Biz son beş “Doing Business” hesabatı üçün institusional məlumatların araşdırılması prosesindən sonra baş verən məlumat dəyişikliklərinin sistematik şəkildə nəzərdən keçirilməsi və qiymətləndirilməsini aparırıq.
- Biz Dünya Bankı Qrupunun müstəqil Daxili Audit funksiyasından “Doing Business” üçün məlumatların toplanması və ekspertizası proseslərinin və məlumatların bütövlüyünü qorumaq üçün nəzarət sisteminin auditini aparmağı xahiş etmişik.

Biz müəyyənləşdirilmiş faktlara əsaslanaraq hərəkət edəcəyik və pozuntuların təsirinə ən çox məruz qalmış ölkələr üzrə məlumatları retrospektiv olaraq düzəldəcəyik.

Dünya Bankının İcraçı Direktorlar Şurasına, habelə məlumat pozuntularının təsirinə ən çox məruz qalmış ölkələrin hökumət orqanlarına vəziyyət haqqında məlumat verilmişdir.

“Doing Business” hesabatının dərc edilməsi qiymətləndirməmizin aparıldığı müddətdə dayandırılacaq.

------------------------------------

**Əlaqə**

Nicole Frost

+1 202 458 0511

press@worldbank.org

------------------------------------

2021/ECA/11